1_Layout 1 13.11.2025 9:32 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 21 (709)

14 noyabr 2025-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


## SARSILMAZ MİLLİ İRADƏNİN, BEYNƏLXALQ HÜQUQUN VƏ TARİXİ ƏDALƏTİN ZƏFƏRİ



Beynəlxalq hüquq normalarının bərpası ilə nəticələnən, ərazilərimizin 30 illik işğalı faktına son qoyan İkinci Qarabağ müharibəsində əldə etdiyimiz möhtəşəm zəfərin 5-ci ildönümü müstəqil tariximizin ən şanlı, qürurverici səhifələrindən biri kimi hər bir azərbaycanlıda böyük fəxarət hissi doğurur. Qarabağın tacı olan Şuşa şəhərinin işğaldan azad edildiyi günün - 8 Noyabr tarixinin Azərbaycanda Zəfər Günü kimi əbədiləşməsi mühüm siyasi-psixoloji çalarlara malik hadisə olmaqla yanaşı, ərazilərimizdə erməni separatizminin tam iflası faktını özündə simvolizə edir.

Zəfər Günü xalqın milli iradəsinin, dövlətin iqtisadi və hərbi qüdrətinin, tarixi ədalətin təntənəsi kimi dövlətçilik tariximizdə xüsusi yer tutur. İkinci Qarabağ müharibəsindəki qələbəmizin beşinci ildönümü münasibətilə paytaxtın Azadlıq meydanında təşkil olunan möhtəşəm hərbi parad isə ilk növbədə son illərdəki hərbi-siyasi uğurlarımızın real miqyasını bütün dünyaya nümayiş etdirdi. Bir daha təsdiqlənir ki, Azərbaycan dövləti ədalətli müharibə apararaq, dayanıqlı sülhə nail olmuşdur. Beş il əvvəl qazanılan qələbə bu gün beynəlxalq hüquqla möhkəmlənmiş, diplomatik razılaşmalarla rəsmiləşdirilmiş, gələcəyə yönəlmiş dövlət siyasətinin təməl prinsipinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin sözüdür: "Əgər xalqın iradəsi möhkəmdirsə, heç bir güc onu sındıra bilməz". Xalqımız cəmi 44 gün davam edən hərbi əməliyyatlar zamanı qazandığı parlaq zəfərlə torpaqlarımızın otuzillik işğalına son qoymuş, iki əsrə qədər davam edən Qarabağ münaqişəsinin həllinə nail olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev əsrlər boyu hissə-hissə itirilən torpaqlarımızın müəyyən qismini geri qaytarmağı bacararaq, regionda yeni siyasi reallığın əsasını qoyan Lider kimi adını ən müasir tariximizə yazmışdır.

İnkaredilməz həqiqətdir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanda ötən 30 ildə müasir dövlətçilik ənənələrinin, vətəndaş cəmiyyətinin, iqtisadi-siyasi institutların formalaşdırılması prosesi xalqımızın Ümummilli Lideri, böyük şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü ildən sonra Prezident İlham Əliyev bu ənənələri daha da inkişaf etdirərək ölkəmizi bütün parametrlər üzrə tarixinin qüdrətli mərhələsinə çatdırmışdır. Bu illər ərzində cənab İlham Əliyevin özünün də formalaşdırdığı bir çox dövlətçilik ənənəsi vardır ki, Vətən müharibəsi günlərində əldə edilmiş təcrübə bunlardan ən əhəmiyyətlisi sayıla bilər.

Barəsində hələ çox əsrlər danışılacaq şanlı zəfərimizin qayəsində, kökündə duran başlıca səbəb, həlledici amil isə xalqımızın vahid amal uğrunda "dəmir yumruq" kimi birləşməsi, Liderinə sonsuz güvənməsi, onun qərarlarını tərəddüdsüz dəstəkləməsidir. Xalqımız ötən əsrin 90-cı illərində dövlətçiliyə qarşı yönəlmiş xəyanətkar qəsdlər, çevriliş cəhdləri zamanı, eləcə də Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulu mərhələsində göstərdiyi birlik və həmrəyliyi Vətən müharibəsi günlərində daha böyük mütəşəkkilliklə nümayiş etdirmişdir.

Vətən müharibəsi düşmənə qarşı əks-həmlə əməliyyatlarının başlandığı ilk saatlardan xalq-dövlət birliyi, milli vəhdətimizin təntənəsinə çevrilmiş, cəmiyyəti "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" ovqatında kökləmişdir. 44 günlük müharibənin nəticəsi olaraq ölkəmiz nəinki ərazi bütövlüyünü bərpa etmiş, eyni zamanda "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı bir mirasın gələcək nəsillərə ötürülməsinin qarşısını almışdır. Azərbaycan son 200 ildə torpaq itirən dövlətdən itirdiyi əraziləri geri alan ölkəyə çevrilmiş, buna həm də son dərəcə mürəkkəb geosiyasi vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü, düşmən səmtində yer alanların çoxluğu şəraitində nail olmuşdur. Bütün bunlar beşinci ildönümünü qeyd etdiyimiz zəfərin dərin fəlsəfi-mənəvi, psixoloji mahiyyətini göz önündə canlandırır, eyni zamanda soydaşlarımızın "Mən azərbaycanlıyam!" sözlərini daha böyük qürurla səsləndirmələrinə, başlarını dik tutmalarına imkan verir.

Onu da xüsusi vurğulamaq lazımdır ki, məhz dövlət başçısı İlham Əliyevin hakimiyyətdə olduğu illərdə yetişən vətənpərvər ruhlu gənc nəsil Müzəffər Ali Baş Komandanın əmrinə müntəzir olaraq, Vətən torpaqlarını düşmən tapdağından azad etmişdir. Prezident İlham Əliyev Azərbaycan gənclərinin bu əzmkarlığını yüksək dəyərləndirərək demişdir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi".

Böyük ingilis mütəfəkkiri və dövlət xadimi Uinston Çörçil deyirdi: "Qələbə qətiyyət tələb edir, qətiyyət isə qorxunun olmadığı yerdə yaranır". Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi dövründə ciddi beynəlxalq təzyiq və təhdidləri məhz xalqın inam və iradəsinə, birliyinə söykənərək dəf etmiş, həlledici qələbənin əldə olunmasınadək dayanmaq əmri verməmişdir. Döyüş meydanında sarsıdıcı məğlubiyyətlə üzləşən, geri çəkilməyə məhkum olan Ermənistan Azərbaycanın mülki əhalisini hədəf seçərək ağır cinayətlər törətsə də, bu yolla ordumuzu dayandırmaq məqsədinə nail ola bilməmişdir. Ermənilərin təxribatlarına, vandalizminə baxmayaraq, Azərbaycanın Tərtər, Gəncə, Bərdə, Goranboy, Ağdam, Mingəçevir, eləcə də digər şəhər və rayonlarının sakinləri sonadək yüksək vətənpərvərlik, iradə, əzm nümayiş etdirmişlər.

2020-ci il noyabrın 10-da imzalanmış məlum üçtərəfli Bəyanatla Ermənistanın qoşunlarını işğal edilmiş ərazilərdən, o cümlədən Ağdam, Laçın və Kəlbəcər rayonlarından müqavimətsiz çıxarmağa məcbur olması birmənalı olaraq Azərbaycan Ordusunun tarixi qələbəsi idi. Bu həm də 30 ildən çox müddətdə Vətən həsrəti ilə yaşayan insanların nisgilinə, habelə onların ümidsizliyinə son qoymuşdur. Azərbaycan Prezidenti İlham Əliyev onların ən böyük arzusunu, doğma yurdlarına qayıtmaq amalını gerçəkləşdirmişdir.

Azərbaycan İkinci Qarabağ müharibəsindəki tarixi qələbəsi, eləcə də 2023-cü ilin sentyabr ayında keçirilən uğurlu lokal antiterror tədbirləri ilə təkcə ərazi bütövlüyünü və suverenliyini deyil, həm də 30 il əvvəl ümumxalq referendumu ilə qəbul olunmuş ilk milli Konstitusiyanın bütün inzibati-ərazi vahidləri üzrə hüquqi təsir gücünü, işləkliyini təmin etmişdir. Bu həm siyasi-hüquqi, həm də mənəvi baxımdan müasir Azərbaycan tarixində dönüş nöqtəsidir. Dövlətin bütün sərhədlərində qanunların qüvvədə olması, vahid hüquqi idarəetmə mexanizmlərinin bərpası milli dövlətçilik modelinin sabit və müstəqil təməllər üzərində qurulduğunu sübut edir.

Azərbaycanın tarixi zəfərlərinin parlaq nəticələrindən biri də ondan ibarətdir ki, işğal faktına son qoyan respublikamız regionda ikinci erməni dövlətinin yaradılması cəhdlərinin qarşısını birdəfəlik almışdır. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında" 28 dekabr 2024-cü il tarixli Sərəncamı bu mənada dövlət müstəqilliyimizin hüquqi əsaslarının, suverenliyimizin möhkəmlənməsinin və milli dövlətçiliyin təməl prinsiplərinin təsdiqi baxımından xüsusi siyasi əhəmiyyətə malikdir.

Xalqımız zəfərin beşinci ildönümünü regionda formalaşan yeni siyasi reallıqlar fonunda qeyd edir. 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamə Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması, dayanıqlı sülhün reallığa çevrilməsi istiqamətində atılmış qətiyyətli addımdır.

Bakıda keçirilən hərbi parad Zəfər Gününün dövlətçilik baxımından rəmzi və siyasi əhəmiyyətini tamamlayır. Bu tədbir Azərbaycanın hərbi qüdrətinin, müstəqil siyasətinin və beynəlxalq tərəfdaşlıq münasibətlərinin nümayişi kimi qəbul edilir. Bu hərbi paradda Türkiyə Prezidentinin və Pakistan Baş nazirinin iştirakı isə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Bu, yalnız dost və qardaş ölkələrin həmrəyliyinin simvolu deyil, eyni zamanda region və dünya üçün mühüm siyasi mesajlardır. Azərbaycan, Türkiyə və Pakistan liderlərinin birgə iştirak etdiyi Zəfər paradı Cənubi Qafqazda təhlükəsizlik arxitekturasının yeni mərhələsini, islam dünyasında strateji həmrəyliyin möhkəmlənməsini, beynəlxalq münasibətlər sistemində ədalətli güc balansının formalaşmasını göstərir.

Azərbaycan bu gün regionda müstəqil siyasət yürüdən, sülh təşəbbüsləri ilə çıxış edən, beynəlxalq hüququn bərpasına töhfə verən nüfuzlu dövlətə çevrilmişdir. 2020-ci ildə tarixi zəfərlə başlayan, 2023-cü ildə suverenliyin bərpası, 2025-ci ildə Vaşinqton razılaşmaları ilə tamamlanan bu proses Azərbaycanın inkişafının yeni mərhələsini müəyyənləşdirmişdir. Bu mərhələ artıq qalib xalqın öz torpaqlarında sülh, ədalət və inkişaf prinsipləri üzərində qurduğu şanlı dövrün başlanğıcıdır.

**"Azərbaycan" qəzetinin materialları əsasında hazırlanıb.**

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ŞƏXSİ HEYƏTİNƏ



**Əziz həmkarlar!**

Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçuların və polis əməkdaşlarının ailə üzvlərini səmimi qəlbdən təbrik edir, ən xoş diləklərimi çatdırıram.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən torpaqları uğrunda döyüşə başlayan rəşadətli Ordumuzun, o cümlədən Daxili Qoşunların fədakar xidmətləri nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunaraq Qarabağ və Şərqi Zəngəzur torpaqları işğaldan azad edilmiş, Zəfər bayrağı doğma yurdumuzda yenidən ucaldılmışdır. Əsgər və zabitlərimiz Murov zirvəsi, Cəbrayıl, Hadrut, Füzuli və Şuşa uğrunda gedən döyüşlərdə şücaəti, igidliyi və qəhrəmanlığı ilə xüsusilə fərqlənmiş, xalqımızın və onun ayrılmaz hissəsi olan Daxili İşlər Nazirliyinin şanlı tarixinə yeni qürur səhifələri yazmışlar.

Daxili Qoşunların şəxsi heyəti 2023-cü ildə keçirilmiş antiterror əməliyyatında da yüksək döyüş hazırlığı, peşəkarlıq və dövlətə sədaqət nümunəsi göstərmiş, Ali Baş Komandanın bütün əmrlərini məsuliyyətlə və layiqincə icra etmişdir.

Əminəm ki, öz adına həmişə sadiq qalan, qanunçuluğun və hüquq qaydasının keşiyində ayıq-sayıq dayanan, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə asayişi və təhlükəsizliyi mərdliklə qoruyan şəxsi heyətimiz bundan sonra da Azərbaycan Respublikasının Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının etimadını doğruldacaqdır.

Xalqa və dövlətə sədaqətli xidmətə görə hər birinizə təşəkkür edir, möhkəm cansağlığı, ailə səadəti, şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram!

**Vilayət Eyvazov**
**Azərbaycan Respublikasının**
**daxili işlər naziri**
**general-polkovnik**

## Nazir Vilayət Eyvazov Kürdəmirdə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirdi







Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də və noyabrın 1-də Kürdəmir Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Kürdəmir rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Kürdəmir, Ucar, Hacıqabul, Göyçay, Ağdaş, Ağsu, Şirvan və digər bölgələrdən gələn 315 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə ciddi tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 14 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 163 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.11.2025 9:41 Page 1



# ZƏFƏRİN 5 İLİ

## Vətən müharibəsindəki qələbəmiz həmrəyliyimizin təntənəsidir

Daxili İşlər Nazirliyində 8 Noyabr - Zəfər Gününə həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.



Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igid oğullarımızın əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin xalqımızın şanlı tarixində əbədi iz qoyan, əsrlərlə yaddaşlardan silinməyəcək bir hadisə olduğunu vurğulayıb. O, torpaqlarımızın işğaldan azad olunmasının, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpasının Azərbaycan xalqının qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazılmış ən parlaq səhifələrdən olduğunu, bu qələbənin qazanılmasında təkcə hərbi gücün deyil, xalq-ordu-dövlət birliyinin və milli iradənin vəhdətinin mühüm rol oynadığını qeyd edib. Tədbir iştirakçılarına daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Daxili İşlər Nazirliyinin şəxsi heyətinə ünvanladığı təbriki çatdırılıb.

Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov ölkə Prezidentinin davamlı səyləri ilə yaradılan güclü hərbi potensialın qarşımızda duran müqəddəs missiyanın layiqincə yerinə yetirilməsində öz töhfəsini verdiyini qeyd edib.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının Vətən müharibəsində misilsiz şücaət və hünər göstərərək Ali Baş Komandanın etimadını və xalqımızın inamını doğrultduğu, torpaqlarımızın işğaldan azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığı, 346 nəfərin yaralandığı, ölkə rəhbəri tərəfindən 4 hərbi qulluqçunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyü, yüzlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğu bildirilib.

Daha sonra çıxış edənlər Vətən müharibəsində qazanılan qələbədə və lokal xarakterli antiterror tədbirlərində Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının göstərdikləri şücaət və qəhrəmanlıqlardan danışıblar.

Tədbirin sonunda Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını özündə əks etdirən "Zəfər meydanı" sənədli filmi nümayiş etdirilib.

**DİN-in Mətbuat xidməti**

# ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Noyabrın 7-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.




Mərasimdə daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.

Hərbi rituala uyğun olaraq hərbi hissənin döyüş bayrağı sıra meydanına gətirilib. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirələrinin yad edilməsi ilə başlayan mərasimdə Dövlət Himni ifa olunub. Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Mərasimdə çıxış edən hərbi hissə komandiri polkovnik Bəhruz Kazımov əsgərlərə Vətənə, dövlətə və Ali Baş Komandana, hərbi anda sadiq olmalarını, nümunəvi, intizamlı xidmət etmələrini, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşmalarını tövsiyə edib.



Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən gənc əsgərlərin qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, həmçinin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan gənclərimizin sədaqət hissi ilə döyünən qəlblərinin hər zaman Vətən eşqi ilə alovlanacağına, xidməti-döyüş tapşırıqlarının daha keyfiyyətlə yerinə yetirilməsində öz fədakar xidmətlərini əsirgəməyəcəklərinə, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacaqlarına, dövlətçiliyimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişaf və tərəqqisi naminə uğurlar qazanacaqlarına əminlik ifadə olunub.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# HƏRBİ İNSTİTUTDA "ZƏFƏR TARİXİ" ADLI ELMİ-NƏZƏRİ KONFRANS KEÇİRİLİB

8 Noyabr - Zəfər Günü münasibətilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi İnstitutunda "Zəfər tarixi" adlı respublika elmi-nəzəri konfransı keçirilib. Tədbir 44 günlük Vətən müharibəsində qazanılmış şanlı qələbənin 5-ci ildönümünə həsr olunub.



Konfransda dövlət və ali təhsil müəssisələrinin nümayəndələri – Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsi, Azərbaycan Respublikası Milli Müdafiə Universiteti, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, Dövlət Gömrük Komitəsinin Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Dövlət Sərhəd Xidməti Akademiyası, Dövlət Dəniz Akademiyasının nümayəndələri, kursant və tələbələri, Vətən müharibəsinin qəhrəmanları və iştirakçıları, həmçinin şəhid ailələrinin üzvləri qonaq qismində iştirak ediblər.

Konfrans zamanı Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, videoçarx nümayiş etdirilib.

Konfransı giriş sözü ilə açan Hərbi İnstitutun rektoru general-mayor Elçin Məmmədov tədbir iştirakçılarını salamlayaraq konfransın işinə uğurlar arzulayıb. Zəfər Gününün tarixi əhəmiyyətini vurğulayaraq gənc nəslin dövlətçilik ideyalarına sadiq və vətənpərvər ruhda tərbiyə almasının önəmini nəzərə çatdırıb.

Məruzələrdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən dövlətçilik məktəbinin, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli iradəsinin şanlı zəfərin əsas dayağı olduğu xüsusi vurğulanıb. Çıxışlarda Vətən müharibəsinin hərbi-siyasi nəticələri, postmüharibə dövründə təhlükəsizlik sisteminin təkmilləşdirilməsi və milli birliyin möhkəmləndirilməsi məsələləri müzakirə edilib.

Çıxış edənlər bildiriblər ki, zəfər yalnız hərbi qələbə deyil, həm də xalqın iradəsinin, dövlətin strateji gücünün və milli həmrəyliyin təntənəsidir.

Konfrans Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının elmi mühitində milli ruhu, elmi düşüncəni və təhlükəsizlik mədəniyyətini birləşdirən mühüm platforma kimi yadda qalıb.

**DİN-in Mətbuat xidməti**

# ƏSAS MƏQSƏD HƏR ŞƏRAİTDƏ DÖYÜŞ TAPŞIRIQLARININ KEYFİYYƏTLƏ İCRASIDIR

Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.



12318 saylı hərbi hissənin komandiri polkovnik Vaqif Umudəliyev xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər. Onların hərtərəfli hazırlıqları bunu deməyə əsas verir.

Dəstə komandiri polkovnik-leytenant Ələsgər Muxtarovun sözlərinə görə, dəstə qəfləti tapşırıqları hər an uğurla yerinə yetirməyə qadirdir. Vəzifə borclarından irəli gələn tələblərdən danışan komandir hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlər keçirilir və mövzuların hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi xüsusilə diqqətdə saxlanılır. Eyni zamanda, onların təlim-tərbiyələri, mənəvi-psixoloji hazırlıqlarına nəzarət edilir. Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər təşkil olunur. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri fəallıq nümayiş etdirirlər. Həmçinin şəxsi heyətə cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilmələri üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.



Polkovnik-leytenant Ə.Muxtarov döyüş hazırlığının yüksəldilməsi məqsədilə dəstə komandirinin müavini-qərargah rəisi mayor Samir Omarovun xidmətini tələblərə uyğun olaraq təşkil etdiyini, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində isə tərbiyə işləri üzrə müavini mayor Xəqani Məmmədovun əməyini vurğuladı.

Dəstə komandiri təlimlər zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu, bundan sonra da xidməti-döyüş tapşırıqlarının peşəkarlıqla və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün hazırlıqların davam etdiriləcəyini dedi. Çünki əsas məqsəd hər şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrasıdır.



O, bacarıqlı və fəal hərbi qulluqçulardan baş çavuşlar Telman Soltanov, Naib Hüseynov, Tamerlan Həsənov və çavuş Elməddin Hacıyevin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

# 8 NOYABR - ZƏFƏR GÜNÜ İLƏ ƏLAQƏDAR DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI NÖVBƏTİ AĞACƏKMƏ KAMPANİYASI KEÇİRİBLƏR

Polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Sabunçu rayonu ərazisində növbəti ağacəkmə kampaniyası keçirilib.

Əvvəlcə Ramana qəsəbəsində seçilmiş ərazidə abadlıq və təmizləmə işləri aparılıb. Sonra polis əməkdaşları və hərbi qulluqçular yerli iqlimə uyğunlaşdırılmış şam və zeytun tinglərini əkib, ağaclara aqrotexniki qaydada qulluq göstərib, suvarma işləri görüblər. Tinglərin küləkdən qorunmaları və normal böyümələri üçün qoruyucu dirəklər basdırılıb.





**DİN-in Mətbuat xidməti**

3_Layout 1 13.11.2025 10:07 Page 1



# HAQQIN, ƏDALƏTİN, LƏYAQƏTİN ZƏFƏRİ

Azərbaycan şərəfli Zəfər Gününün 5-ci ildönümünü qeyd etdi. İgid Azərbaycan oğullarının canları və qanları bahasına əldə edilən bu qələbə tariximizə qızıl hərflərlə yazıldı.

Biz bu qələbəni milli birliyimiz sayəsində qazandıq. Milli mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycanı özünə Vətən bilən hər kəs bu müharibədə bir ananın övladı kimi vuruşdu. Bütün dünya azərbaycanlıları haqq işimizə bacardıqları dəstəyi verməyə çalışdılar. Müharibə dövründə Azərbaycan xalqı öz “dəmir yumruğu”nu və həmrəyliyini nümayiş etdirdi.

2020-ci ilin 27 sentyabr tarixində Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı hərbi təxribatına qarşı Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatı ilə başlayan və xalqımızın tarixinə silinməz izlərlə həkk olunan Vətən müharibəsi Ermənistanın işğalçılıq siyasətinə son verilməsi ilə nəticələndi.

Azərbaycan müharibəni xalqımıza xas ləyaqətlə apardı. Dövlətimizin sosial-iqtisadi gücü, maliyyə imkanları, xarici tərəfdaşlarla etibarlı münasibətləri hesabına əldə olunmuş müasir növ silahlarla XXI əsrin müharibəsini etdi. Həm 44 günlük Vətən müharibəsi, həm də antiterror tədbirləri zamanı aparılmış hərbi əməliyyatlarda düşmənin heç bir mülki obyekti hədəfə alınmadı. Yalnız hərbi hədəflərə zərbələr endirildi. Mülki əhaliyə zərər vurulmadı. Ermənilərin Birinci Qarabağ müharibəsi dövründə azərbaycanlılara qarşı törətdikləri soyqırım cinayətlərinin qisası yalnız döyüş meydanında alındı. Dövlətimiz bu müharibə ilə dünyaya örnək olacaq humanizm nümayiş etdirdi.

44 gün davam edən və Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığını bütün dünyaya göstərən




Vətən müharibəsi müasir dünya tarixinə separatçılıq, etnik təmizləmə, dinc əhaliyə qarşı soyqırım, işğalçılıq, tarixi və mədəniyyət abidələrinin vəhşicəsinə dağıdılması kimi barbar əməllərə, habelə bəşəriyyət əleyhinə cinayətlərə qarşı ən uğurlu əməliyyatlardan biri kimi düşdü.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda aparılan Vətən müharibəsində digər qoşun növləri ilə birlikdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də əzmlə vuruşub, düşmənə ağır zərbələr endirərək əsl qəhrəmanlıq nümunələri ilə yadda qalıb.

Aparılan əməliyyatlarda Daxili Qoşunların şəxsi heyətindən 66 nəfər şəhid olub, 346 nəfər yaralanıb, 4 nəfər isə “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb.

Böyük qələbənin arxasında Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət, ordu quruculuğu, sosial-iqtisadi inkişaf, Prezident-xalq-ordu birliyi kimi amillər dayanır.

Azərbaycan xalqının və onun ayrılmaz parçası olan şanlı ordusunun erməni terrorçularına qarşı apardığı savaşda qazandığı zəfər dünyanın aparıcı ölkələrinin hərbi institutlarında tədris olunan dərsliklərdə yeni paraqraf açdı. Azərbaycan əsgərinin igidliyi, iradəsi, cəsurluğu və qəhrəmanlığı artıq beş ildir ki, dünyanın aparıcı hərbi institutları və elmi araşdırma mərkəzləri tərəfindən təhlil edilərək öyrənilir.

Ölkəmizin qələbəsi müasir döyüş əməliyyatlarına baxışları kökündən dəyişdirdi. Təkcə Şuşa əməliyyatında göstərdiyimiz hünər dünya mətbuatında fantastik bir hadisə kimi qiymətləndirildi. İndi hər yerdə Azərbaycan Ordusunun təcrübəsi, qələbəmizin sirri öyrənilir. Necə də qürurvericidir! Bu sirr isə çox sadədir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti, sarsılmaz iradəsi, Azərbaycan döyüşçüsünün misilsiz qəhrəmanlığı, mətinliyi, xalqın öz dövlətinin, Prezidentinin ətrafında bir yumruq kimi birləşməsi, zərgər dəqiqliyi ilə ölçülüb-biçilən və uğurla həyata keçirilən dövlət siyasəti…

Bu siyasət təkcə Şuşa zəfəri ilə, digər torpaqlarımızın işğaldan azad olunması ilə bitmədi. Bu gün Azərbaycanın müqəddəs üçrəngli bayrağı bir zamanlar düşmən tapdağı altında, lakin indi öz sahibində olan bütün torpaqlarımızda dalğalanır.




Vətən müharibəsində qazanılan 8 noyabr zəfəri və ardınca 19-20 sentyabr 2023-cü ildə separatçıların Xankəndidəki yuvalarının dağıdılması ilə nəticələnən antiterror tədbirləri sayəsində Azərbaycan yeni bir tarixi dövrə daxil oldu. Bu mənada Azərbaycan Silahlı Qüvvələrinin qazandığı zəfər bir neçə ilin, on ilin deyil, əsrlərin zəfəridir.

Nəticədə illər boyu ən böyük yaramız olan Xocalımıza qovuşduq. Ermənistan rüsvayçı məğlubiyyətini bütün dünya ictimaiyyəti qarşısında bir daha etiraf etməyə məcbur edildi. Bayrağımız indi Qarabağın və Şərqi Zəngəzurun hər şəhərində, hər kəndində dalğalanır! Yuxu deyil, reallıqdır! Bu reallığı yaradan əbədi minnətdar olmalı olduğumuz Müzəffər Ali Baş Komandanımızdır, onun dahiyanə strategiyasıdır, əbədiyyən borclu olduğumuz müqəddəs şəhidlərimizdir, Azərbaycan əsgəridir, onun misilsiz qəhrəmanlığıdır, xalqımızın birliyi və iradəsidir!

Azərbaycan xalqının əzmi, ordumuzun qəhrəmanlığı və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfər Gününün beşinci ildönümünü böyük coşqu və iftixarla qeyd etdik.

Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, xalqımızın qürur mənbəyinə çevrildi. Qələbənin əldə edilməsi ilə Azərbaycan itirilmiş torpaqlarını geri aldı, böyük güclərin 200 ildən artıq regionda həyata keçirdikləri erməni layihəsini iflasa uğratdı. Ölkəmiz bu zəfər ilə regionda və beynəlxalq müstəvidə “Qarabağ Azərbaycandır!” reallığını yaratdı.

Bu gün azad olunmuş torpaqlarda dünyanın aparıcı şirkətlərinin iştirakı ilə abadlıq və quruculuq işləri yüksək səviyyədə icra olunur.

Vətən müharibəsində əldə olunmuş zəfərdə böyük xidmətləri olan əsgər və zabitlərimizin, ön və arxa cəbhələrdə fədakarlıq göstərən vətəndaşlarımızın xidmətlərinin dəyərləndirilməsi məqsədilə “Zəfər” və “Qarabağ” ordenlərinin, həmçinin 15 yeni medalın təsis olunması, minlərlə hərbi qulluqçunun Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə mükafatlandırılması dövlətimizin qəhrəmanlarımıza həssas münasibətini göstərir.

“Gün o gün olsun...”. Bu sözlərlə başlayan cümləni o qədər çox eşitmişdik ki... Bəli, həmin o gün məhz bu gündür. Məhz bu gün, 30 il ərzində yurd həsrətinin acısından, xalqımızın başına gətirilən müsibətlərin ağırlığından ürəyimizə daman göz yaşlarımızın sevinc göz yaşlarına çevrildiyi gündür.

Alqış bu tarixi yaradanlara!

Alqış Azərbaycan xalqını ən böyük arzusuna qovuşduran Ali Baş Komandana!

Alqış böyük fədakarlıqla düşməni torpaqlarımızdan qovan, separatçıların yuvasını dağıdan, Şuşada, Xankəndidə bayrağımızı ucaldan qəhrəman əsgər və zabitlərimizə!

Bu gün artıq ərazi bütövlüyümüz tam təmin olunub. Azərbaycan xalqı bununla öz ləyaqətini bərpa etdi. İndi bizimlə hesablaşır, bizə hörmət və qibtə edirlər.

Böyük qələbəmiz uğrunda canlarından keçmiş bütün şəhidlərimizi bir daha rəhmət və ehtiramla anır, ruhları qarşısında baş əyirik.

Daha böyük qələbələrə layiq Azərbaycan xalqı, müqəddəs Zəfər Günün mübarək!

**Venera Mürşüdova**
**Hərbi İnstitutun müəllimi**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ NÜMUNƏVİ XİDMƏTİLƏ FƏRQLƏNƏN DƏSTƏ

12565 saylı hərbi hissənin yüksək döyüş hazırlığı ilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir.

Dəstənin tərkibində fəaliyyət göstərən xüsusi vasitələrin tətbiqi bölmələrinin uğurlu fəaliyyətindən bəhs edən dəstə komandiri mayor Fərid Sucayev söylədi ki, qarşıya qoyulan müxtəlif tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir: “Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədi də budur. Bu məqsədlə tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq, ictimai-siyasi hazırlıq məşğələləri təşkil olunur. Həmçinin kütləvi iğtişaşların qarşısının alınması, xüsusi vasitələrdən istifadə zamanı təh-







lükəsizlik qaydalarına riayət olunması mövzularında keçirilən məşğələlər zamanı xidməti fəaliyyətin xüsusiyyətlərinin hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsinə xüsusi diqqət yetirilir. Döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması, həmçinin möhkəm hərbi intizam və nümunəvi xidmət bizim əsas prinsipimizdir”.

Mayor F.Sucayev onu da əlavə etdi ki, çətin şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Təlimlər zamanı bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilik və praktiki bacarıqları şəxsən yoxlanılır. O, təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan leytenantlar Nurəli Vəliyev, Malik Əliyev, Kənan Məmmədov, gizirlər Sahil Məhərrəmov, Əbülfəz Quliyev, Ramazan Ocaqquliyev, Elnur Yaqubov, baş çavuş İlkin Kazımov, çavuşlar İxtiyar Əhmədov, Rüstəm Rüstəmov və əsgər Rasim İsgəndərovun adlarını çəkdi.

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Fuad Əzizov bildirdi ki, dəstədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və s. kimi çoxşaxəli tərbiyə işi tədbirləri şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə və hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verir.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq və əzmkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**mayor Anar Əhmədov**

# DÖYÜŞ XİDMƏTİ ŞƏRƏFLİ VƏ MƏSULİYYƏTLİDİR

16077 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri baş leytenant Rəşad Əliyev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkının, anbarlarının mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Şəxsi heyətin sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən baş leytenant R.Əliyev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.





Xidmətdən əvvəl müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçularla təlimat keçirilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır: “Ümumiyyətlə, xidmətə cəlb edilənədək hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. Həmçinin tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu kapitan Fəzail Rzaquliyev də xidmətə cəlb olunan şəxsi heyətlə fərdi qaydada söhbət aparır. Qarovulun xidmətinə nəzarət edərkən post-




larda saatdarların vaxtlı-vaxtında dəyişilməsi ilə yanaşı, silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunması, eləcə də asudə vaxtın səmərəli təşkili - müxtəlif növ ədəbiyyatların, dövri mətbuatın mütaliəsi, stolüstü oyunların oynanılması da diqqət mərkəzində saxlanılır”.

Baş leytenant R.Əliyev qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.




Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Murad Maqsudovun yaxından iştirak etdiyini deyən baş leytenant R.Əliyev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Bölük komandiri layiqli xidmətilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan gizir Azər İbrahimov, çavuş Ceyhun Hüseynov, əsgərlər Dadaşəli Əzimov, Ramazan Eminov və Şahin Mehdizadənin adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 13.11.2025 10:11 Page 1



# UŞAQLARIN ZƏFƏR BAYRAMI COŞQUSU




8 Noyabr - Zəfər Günü xalqımızın birliyinin, qəhrəmanlığının, yenilməz ruhunun simvolu, 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbənin və şəhidlərimizin müqəddəs xatirələrinin rəmzidir. Hər il ölkəmizdə böyük qürur və sevinc hissi ilə qeyd edilən, tariximizə qızıl hərflərlə yazılan Zəfər bayramı təkcə hərbi qələbəmiz deyil, eyni zamanda xalqımızın Vətən sevgisinin və azadlıq uğrunda mübarizəsinin təntənəsidir. Bu gün həm də müstəqil Azərbaycanın gücünü, dövlətimizin qətiyyətini dünyaya göstərən tarixdir.

Hər il olduğu kimi, bu il də Daxili Qoşunların hərbi hissələrində Zəfər Günü münasibətilə tədbirlər təşkil edilib. Noyabrın 7-də 25031 saylı hərbi hissənin ərazisində fəaliyyət göstərən uşaq bağçasında da bayramla əlaqədar tədbir keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlanan, hərbi qulluqçularımızın azyaşlı övladlarının qatıldıqları tədbirdə ilk olaraq Zəfər Gününün tarixi, qəhrəman şəhidlərimizin şücaəti barədə məlumat verilib, onların ruhları minnətdarlıqla yad edilib. Qeyd olunub ki, məhz cəsur hərbi qulluqçularımızın igidlik və fədakarlıqları sayəsində bu gün üçrəngli bayrağımız Qarabağ və Şərqi Zəngəzurda dalğalanır, ərazi bütövlüyümüz tam bərpa olunub. Şəhidlərimizin canları və qanları bahasına qazanılan bu zəfər gələcək nəsillərə azad, güclü və müstəqil bir ölkə miras qoyub.

Daha sonra musiqi nömrələri ilə davam edən tədbir nur çöhrəli övladlarımızın səhnəcikləri, Zəfər Gününə həsr olunmuş şeirləri səsləndirmələri və rəqsləri ilə yaddaqalan olub.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ ORKESTR MUSİQİ ƏNƏNƏLƏRİMİZƏ SADİQDİR



Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təşkilində, şəxsi heyətə vətənpərvərlik əqidəsinin, mədəni-estetik dünyagörüşünün aşılanmasında 12565 saylı hərbi hissənin təminat bölüyünün hərbi orkestrinin xüsusi rolu var. Hərbi hissədə rəsmi mərasimlər, əlamətdar günlər münasibətilə tədbirlərin keçirilməsini orkestrsiz təsəvvür etmək çətindir. Repertuarında hərbi marşların, vətənpərvərlik ruhunda mahnıların üstünlük təşkil etdiyi hərbi orkestr zəngin yaradıcılıq potensialına və geniş fəaliyyət təcrübəsinə malikdir.

Orkestrin solisti gizir Səyyad İsmayılov bildirdi ki, kollektiv hərbi hissədə keçirilən rəsmi tədbirlərdə və xidmətə qəbul olunmuş çağırışçıların andiçmə mərasimlərində iştirak edir. Həmçinin onlar tərəfindən təşkil edilən konsert proqramları şəxsi heyətin əhval-ruhiyyəsini yüksəldir, vətənpərvərlik hissini gücləndirir, musiqiyə marağını artırır.

Gizir S.İsmayılov öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş çavuş Anar Əliyev, əsgər Elçin Aslanov, həmçinin musiqiçi-işçilərdən Zülfüqar Bayramov və Kəramət Xəlilovun adlarını çəkdi.

Bu gün orkestrin normal fəaliyyəti üçün lazımi şəraitin olduğunu vurğulayan gizir S.İsmayılov Daxili Qoşunların adını hər zaman ucaltmaq üçün bundan sonra da əzmlə çalışacaqlarına söz verdi.

**mayor Anar Əhmədov**

# QARŞIYA QOYULAN TAPŞIRIQLARI YERİNƏ YETİRMƏYƏ HAZIR OLAN İSTEHKAMÇI QRUPU



12565 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Dəstənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də istehkamçı qrupudur.

Xüsusi təyinatlı dəstənin istehkamçı qrupunun komandiri-baş istehkamçı gizir Babək Muxtarlı söylədi ki, qrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların tapılaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.

Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan gizir B.Muxtarlı ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.





Hərbi hissənin qərargahının kimya və mühəndis xidmətinin rəisi mayor Elçin Paşayev də istehkamçı qrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borcunun icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu diqqətə çatdırdı.

Gizir B.Muxtarlı qrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Asiman Əliyev, Orxan Əliyev, Bəhrəm Həsənov və Samir Vəliyevin adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını vurğuladı.



**mayor Anar Əhmədov**

*Həkim məsləhəti*

# NAR: HƏR DƏNƏSİNDƏ HƏYAT VAR



Narın ən qiymətli sortu eramızdan əvvəl qədim Yunanıstanın Karfagen vilayətində becərilsə də, onun vətəni İran hesab edilir. Bu meyvəni elmi təbabətə ilk dəfə hind həkimləri gətiriblər.

AZƏRTAC tibbi saytlara istinadla xəbər verir ki, narın müalicəvi xüsusiyyətləri hələ eramızdan əvvəl assuriyalılara, misirlilərə, yunanlara və romalılara məlum idi. Eramızdan 1500 il əvvəl Çin təbibləri nar qabığını qurd dərmanı kimi istifadə ediblər.

Nar şirəsi yüksək vitaminli içki kimi yorğunluq, qanazlığı, bronxial astma, angina, radiasion şüalanma, sınqa xəstəliyi zamanı içilir. Bərpaedici vasitə kimi yoluxucu xəstəliklərdən, operativ müdaxilələrdən, mədə-bağırsaq pozuntularından sonra qəbul edilməsi də çox faydalıdır. Nar iştahanı yaxşılaşdırır, sidik turşulu diatezin, başağrılarının, hipertoniyanın müalicəsində istifadə edilir. Onun qabığında olan polifenollar dizenteriya çöplərinin inkişafını dayandırır. Sinir sisteminin möhkəmlənməsi və oyanıqlığı azaltmaq üçün meyvənin pərdəli arakəsmələri qurudularaq çay kimi dəmlənilib içilir.

Boğaz və ağciyər üçün çox faydalı olan nar öskürəyi kəsmək qabiliyyətinə malikdir. Dırnaq iltihabı və cərrahi yaraların müalicəsində nar tumu balla qarışdırılaraq həmin nahiyəyə tətbiq edilir. Meyvənin suyu bağırsaqları yumşaldır.

Nar şirəsi şəkərli diabetdən əziyyət çəkənlər üçün əsl dərmandır. Meyvənin tərkibi qan dövranını gücləndirən antioksidantlarla zəngindir. Prostat vəzi xərçənginin yaranma riskini azaldır.

Növündən asılı olaraq, nar şirin və turş olur. Meyvəyə turş dad verən onun şirəsindəki limon turşusudur. Onun tərkibi şəkər və limon turşusu ilə yanaşı, vitaminlər, boyayıcı maddələr, makro və mikroelementlərlə zəngindir.

**AZƏRTAC**

*NÜMUNƏVİ XİDMƏT*

# FƏALİYYƏTİ İLƏ YÜKSƏK ETİMAD QAZANAN TƏLİMATÇI-PSİXOLOQ



Bu gün şəxsi heyətin hərbi-vətənpərvərlik, dövlət və dövlətçiliyə sevgi, sədaqət, ümumbəşəri dəyərlər və Azərbaycan xalqının tarixi ənənələri ruhunda tərbiyə edilməsi əsas vəzifələrdəndir. Bunun üçün hərbi hissələrdə aidiyyəti vəzifəli şəxslər tərəfindən müvafiq işlər görülür, müxtəlif vasitələrdən istifadə olunur. Ona görə də Daxili Qoşunların şəxsi heyəti hər zaman nizam-intizamı ilə fərqlənir, hərbi qulluqçularımız qarşıya qoyulan bütün tapşırıqları keyfiyyətlə yerinə yetirirlər.

Yüksək döyüş hazırlığının qorunub saxlanılmasında hissənin nümunəvi, ayıq-sayıq, intizamlı hərbi qulluqçularının xidməti danılmazdır. Belə hərbi qulluqçulardan biri də 25032 saylı hərbi hissənin zabiti baş leytenant Zaur Abbasovdur. O, 1992-ci ilin oktyabr ayının 3-də Sumqayıt şəhərində anadan olub. 1998-2009-cu illərdə Tovuz rayonunun Aşağı Quşçu kəndində yerləşən İsmayıl Mürşüdov adına tam orta məktəbdə təhsil alıb.

2011-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Zaur Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində xidmət edib. Xidmətini 2012-ci ildə başa vuran gənc ali təhsilə yiyələnmək arzusunu reallaşdırmaq üçün hazırlığa başlayıb. Tədris fənləri üzrə məşğələlərə qatılıb, 2013-cü ildə Gəncə Dövlət Universitetinin pedaqoji fakültəsinin psixologiya ixtisasına qəbul olunub. 2017-ci ildə ali təhsilini başa vurduqdan sonra həyatını hərbçi peşəsinə həsr etməyi qərara alıb. Beləliklə, 2019-cu ildə Daxili Qoşunların 17071 saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlayıb. Hazırda 25032 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin təlimatçı-psixoloqu vəzifəsində xidmətini davam etdirir.

7 ildir ki, qoşunların sıralarında şərəflə xidmət edən baş leytenant Z.Abbasov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. Şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsi, dünyagörüşünün zənginləşdirilməsi üçün əlindən gələni əsirgəməyən zabitimiz uğurlu xidmətinə görə dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb.

**kapitan Nigar Ağayeva**

# HƏRBİ HİSSƏNİN CAMAŞIRXANASININ FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR



16076 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş İmran Qasımov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Sədaqət Novruzova və Gülbəniz Əhmədova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısı ilə yanaşırlar.

Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak qurudulub ütüləndikdən sonra çeşidlənərək aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

**kapitan Şahin Cəfərzadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR -

### İndoneziya Çindən J-10 döyüş təyyarələri alacaq



İndoneziyanın müdafiə naziri ölkənin Hərbi Hava Qüvvələri (HHQ) üçün Çin istehsalı olan “Chengdu” J-10 döyüş təyyarələrinin alınacağını təsdiqləyib. “Poliqon” “Indonesia Business Post” nəşrinə istinadən xəbər verir ki, bu, son 10 il ərzində İndoneziyanın Çindən edəcəyi ilk böyük müdafiə satınalması olacaq.

Nəşr qeyd edib ki, bu təsdiq İndoneziya Prezidentinin sentyabr ayında Pekinə rəsmi səfərindən bir neçə həftə sonra gəlib. Həmin səfər zamanı Çin rəhbərliyi ilə müdafiə əməkdaşlığı və təxminən 9 milyard ABŞ dolları dəyərində 42 ədəd “Chengdu” J-10 qırıcılarının mümkün tədarükü əsas müzakirə mövzularından biri olub.

### Braziliya “Otokar”ın “Tulpar” piyada döyüş maşınına maraq göstərir

Braziliya Quru Qoşunlarının komandanlığı Türkiyənin “Otokar” şirkəti tərəfindən istehsal edilən “Tulpar” piyada döyüş maşınına (PDM) maraq göstərir. “Poliqon” “Defence Blog” nəşrinə istinadən xəbər verir ki, bu maraq Braziliyanın Quru Qoşunları komandanının “Otokar” müəssisəsinə səfəri zamanı ifadə olunub.



## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Kərim Haqverdiyevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000